# AŞIQ ƏLƏSGƏR FENOMENİNƏ YENİ POETİK BAXIŞ

## *Yusif Nəğməkarın "Ələsgər zirvəsi" poeması haqqında düşüncələr*



*Əlәddin ALLAHVERDİYEV,*
*professor*

***Gah çıxaram göy üzünə, seyr edərəm aləmi,***
***Gah enərəm yer üzünə, seyr edər aləm məni.***

**Qul Nəsimi**

Aşıq Ələsgər sözü, poeziyası alnına Tanrının möhür qoyduğu kamil insan təxəyyülünün, təfəkkürünün ifadə edə biləcəyi gözəlliklə, nurla, hikmətlə, müdrikliklə nəfəs alan sirli, müəmmalı, sehrli, möcüzəli, tilsimli bir poeziya ümmanıdır! Bu ümmanın dərinliklərinə baş vurduqca hətta poeziyanı az-çox bilən, onu sevən insan Ələsgər dühasının düşüncə, fikir tərzinin poetik-fəlsəfi ifadəsini bütövlüklə başa düşmək qarşısında aciz qalır.

Həyatında Aşıq Ələsgər yaradıcılığının heç olmasa bir qoşmasını oxumuş, ürəyi poeziya ilə döyünən hər bir insanın bu xəzinəyə biganə qalmayaraq onun dərinliklərinə can atacağına, baş vurmaq cəhdinə əminəm. Bu mənada Aşıq Ələsgər poeziyasının nurlu çeşməsindən su içmiş müasir ədəbiyyatımızın ünlü korifeyləri tərəfindən bu fenomenin, sirrlərlə dolu yaradıcılığın sehrini açmağa, təhlil və tədqiq etməyə, onun haqqında fikir söyləməyə, dəyər verməyə yönəlmiş ciddi monoqrafiyaların, elmi, publisistik məqalələrin yaranması, ona saysız-hesabsız poemalar və şeirlər həsr edilməsi təsadüfi deyildir.

Aşıq Ələsgər şəxsiyyətinə və yaradıcılığına həsr edilən hər bir yeni əsər, istər elmi-tədqiqat, istər bədii, istərsə də publisistik xarakter daşıyan yaradıcılıq nümunəsi, onun müəllifinin qarşısında böyük məsuliyyət qoyur.

Şair Yusif Nəğməkarın bu yaxınlarda işıq üzü görmüş epik-lirik-dramatik "Ələsgər zirvəsi" poeması ilk növbədə onun ozan-aşıq sənətinə sevgisini və bağlılığını, klassik aşıq poeziyasının görkəmli nümayəndələrinin, o cümlədən, şəksiz, tərəddüdsüz bu poeziyanın zirvəsi, peyğəmbəri sayılan Dədə Ələsgərin həyatı və yaradıcılığı ilə dərindən tanış olduğunu, əsər boyu onları öz oxucusuna poetik sözün gücü ilə bacarıq və məharətlə nümayiş etdirir.

Poema məzmun və ideya baxımından Aşıq Ələsgərin "vəhdəti-vücud" fəlsəfəsi və saz-söz sənəti vasitəsilə insanlıq dəyərlərini tərənnüm etməsinə, yalnız bir şair və sənətkar kimi yox, həm də irfani və mistik bir şəxsiyyət kimi dəyərləndirilməsinə yönəlmişdir. Yusif Nəğməkar Dədə Ələsgərin bədii obrazını həm ənənəvi, həm də yenilikçi, novator yanaşmalarla təqdim edərək, onun möcüzəli, Allah, kainat və insan arasındakı mənəvi bağlarını təsvir edən, Allahın kamilliyinə şahidlik edən "batini mənalar" üzərində qurulan yaradıcılığını poetik dildə öz oxucusuna çatdıra bilmişdir.

İlk növbədə qeyd etmək istərdim ki, "Ələsgər zirvəsi" poeması mövzusu ilə bağlı olaraq milli folklorumuza, aşıq sənətinə və yaradıcılığına mənsub olan dastan xarakteri daşıyır və təsadüfi deyil ki, əsər "Ustadnamə əvəzi" olan "Ən ön ün"lə başlayır. Poema klassik poemalardan fərqli quruluşa, struktura malik olaraq, proloq və epiloq əvəzinə "dəyər ünü", "ən ön ün", "ön ün", "ünləmə"lər, "dönərək"lər, (ricətlər) və "son ün" kimi bölmələrdən ibarətdir. Şairin istifadə etdiyi bu "ün"lər Dədə Qorquddan üzü bəri dastanlarda və klassiik ədəbiyyatda müəllifin əsərin girişi, gedişi və sonuyla bağlı Tanrıya müraciəti, səsi, duası kimi də səciyyələndirilə bilər. Şairin tətbiq etdiyi bu poetik struktur öz oxucusunu maraqda saxlamaqla bərabər, həm də yeni poeziya formatı yaradaraq poeziyamızda yeni bir quruluş, struktur nümunəsi təqdim edir.

Şair Ələsgər bilicilərinin və sevdalılarının fikir və mülahizələrindən aforizm biçimli nümunələr verərək, poemada hansı dühadan, poeziya və şəxsiyyət fenomenindən, şairdən, övliyadan söhbət gedəcəyinin məsuliyyətini özü öz qarşısına qoymaq və bu ağır vəzifəni yerinə yetirmək iqtidarındadır:

Könül, bulaq üstə salavat çevir,
Batində nə dərdi-sərin var, devir.
Dua et ki, o saf zikri ruh sevir,
Könlündəki havacatı telə yaz.
– Ələsgərdən yazırsansa, belə yaz...

...Elə sanma hər mətləbi duyarsan,
İçib qaynar çeşməsindən doyarsan...
Sərraf olub sözü sözdən ayırsan,
Oxu, öyrən, düşün, bilə-bilə yaz,
Ələsgərdən yazırsansa, belə yaz...

...O kimdir ki, Allaha qul, bir ağa?
Bənzər sənət meydanında o dağa.
O kimdir ki, balı qatmış qaymağa?
Döndəribdir hər kəlamı lələ, yaz,
Ələsgərdən yazırsansa, belə yaz.

Hələ uşaqikən ilk şeirini Aşıq Ələsgərə həsr etmiş, hələ o zamanlarda Ulu Göyçəni bucaq-bucaq gəzmiş, təbii gözəlliklərindən zövq almış, dağ döşündən axan bulaqlarından saf su içmiş, Göyçə gölünün mavi sularında xəyala dalmış, yaylaqlarda aşıqların dastanlarına, havacatlarına qulaq asmış şair Yusif Nəğməkarın Dədənin doğulduğu, bu gün düşmən tapdağı altında doğma insanlarına həsrətdən əzab çəkən, Dədənin ruhuyla bizləri qoynuna çağıran qədim, Ulu Göyçənin, onun sadə, mərd, qürurlu insanlarının, saz-söz sənəti xiridarlarının təsviri olduqca təsirli, həyəcanlı, duyğusaldır:

Qədim Oğuz yurdum, türk elim, Göyçəm,
Şəninə min rəngli kəlmələrim var...
Qələm əyirəsi neçə sirr-düyçəm,
Neçə vurulası ilmələrim var...

Göyçə göləndəndir Göyçənin adı,
Suları gömgöydür "Gövçə dənizin".
"Gövçə tengiz"in də mənası odu,
Göy olmuş rəngi də ilkin dan üzün...

...Zamanla uzanan sənətin halı,
Başlamış o Miskin Abdal Fəhmindən.
Göyçədə yetişən Ağ Aşıq, Alı,
Tapmış Ələsgəri Rəbbin rəhmindən!

Əsərdə dramatik səhnələr və təsvirlər diqqət çəkir. Ələsgərin sevgisi, təbiətlə harmoniyası, onun xalqın ruhuna nüfuz edən şeirlərindən ilham alınaraq yazılmış təsvirlər əsərin dramatik gərginliyini artırır.

Poemada gənc Ələsgərin poetik istedadına təkan vermiş nakam, həyatında dərin iz qoymuş, yaddan çıxmaz Səhnəbanı sevgisinin:

İlk məhəbbət Tanrıdan
Qəfil hökm-əmrlik.
Ocağı səngisə də,
Közü qalır ömürlük.

Aşıq Ələsgərin qardaşı oğlu, bənzərsiz poetik istedada malik, bədbəxt taleli, şeirlərilə qəlbləri riqqətə gətirən Növrəs İmanla söhbətinin təsviri, Dədənin onun şeirlərinə qulaq asdıqdan sonra gəldiyi qənaət də

...Bu kürlüklə sınıq telsən,
Cavan ikən ağlar dilsən.
Ərsən, ədəblisən, mərdsən,
Dəliqanlısan, qoçaqsan.
Özün özünü yandırıb
Sozalası bir ocaqsan...

duyan oxucu qəlbində kədərli duyğular, hisslər yaradan səhifələrdir. Növrəs İmanın taleyi ilə bağlı Dədə Ələsgərin görücülüyü, onun el-oba arasında dəfələrlə sınanmış vergili şəxsiyyət olmasını Yusif Nəğməkar poetik şəkildə qabarda bilmişdir.

Aşıq Ələsgər ömrü boyu öz el-obasıyla, sadə, əməksevər, mərd, qürurlu insanları ilə bir olmuş, onların sevincini və dərd-sərini bölüşmüş, onların ərənlərini, xalqına xeyirxah əməlləriylə xeyir verən, onların haqqını müdafiə edən görkəmli şəxsiyyətləri öz şeirlərində tərənnüm etmişdir. Yusif Nəğməkar poemada onların bir çoxunun adını çəkmiş və şücaətini vəsf edərək, Ələsgər yaradıcılığında dastan şəkli almış xalq qəhrəmanı Dəli Alıya bir neçə səhifəlik poetik sətirlər həsr etmişdir:

O, qoçaq, o, qaçaqdı,
Ərdi, amalı haqdı.
Özü sıx ormanlara,
Yolu çöllərə düşüb.
Hər obada, hər eldə,
Adı dillərə düşüb.

Göyçənin Çaxırlı kəndindən olan katta Böyükağanın məkrli məqsədlə qurduğu məclisdə, el-oba arasında, aşıqların dilində cürbəcür variantlarda məşhur olan ustad və şəyirdin – Aşıq Alı ilə Ələsgərin deyişmə səhnəsini şair Yusif Nəğməkar dramatik kulminasiyaya qaldıraraq, o ağır səhnənin sonunu belə təsvir edərək

...Alı öydü Ələsgəri,
(Qısqanclıq sənətə yaddır.)
Dedi: – Mənim bu şəyirdim
Şükr, özü şah ustaddır.
O, hələ çox sənətkardan
Meydan açıb bac alacaq.
Onunla saz sənətimiz
Zirvələrə ucalacaq...

...Vəcdə gəlibən Ələsgər
Sanki bir tufan eylədi.
Üz tutub məclis əhlinə
Görəlim, o, nə söylədi:
–Canım sənə fəda, Qadiri-Sübhan!
Sənin dərgahında bax damar-damar.
Bir şəyird ki, ustadına kəm baxa,
Onun gözlərinə ağ damar-damar...

Hər iki Ustadın, Söz xiridarının mənəvi varlığı, insani keyfiyyətlərini onların layiq olduğu yüksəkliyə, zirvəyə qaldırmağa nail ola bilmişdir.

*(Davamı 7-ci səhifədə)*

# AŞIQ ƏLƏSGƏR FENOMENİNƏ YENİ POETİK BAXIŞ

## *Yusif Nəğməkarın "Ələsgər zirvəsi" poeması haqqında düşüncələr*

*(Əvvəli 6-cı səhifədə)*

Dədə Ələsgər yaradıcılığı onun kainatın yaradıcısına olan sonsuz məhəbbəti, təbiətin ilahi mənaları və insanın əxlaqi, mənəvi kamilliyi üzərində qurulması zəminində "Ələsgər zirvəsi" poemasında irfani düşüncə dominant olaraq, əsər boyu qırmızı xətt kimi keçir, Aşıq Ələsgərin "Ələstüdə "bəli!" deyən ruh" kimi təsvirləri poetik fəlsəfəni ön plana çıxarır. Aşıq Ələsgərin "vəhdəti-vücud" fəlsəfəsi poetik bir tərzdə izah edilir.

Kim? Ələstdən "bəli!", -deyən o bəlli,
Pak ruhuyla Qalu-bəla təməlli.
Ərki olan Şahi-Mərdan o Əli
– Ələsgərdi, Ələsgərdi, Ələsgər.

Həm irfandır, həm təsəvvüf, həm sufi,
Həm arifdir, həm maarifdir, həm şafi.
Həm hürufi, sidqi məqbul, həm kafi,
Ələsgərdi, Ələsgərdi, Ələsgər.

"Vəhdəti-vücuda" ünvan alan qət,
On-on mərtəbələr, məqamlar, əlbət
– Şəriət, təriqət, mərfət, həqiqət,
Ələsgərdi, Ələsgərdi, Ələsgər.

Məlumdur ki, Dədə Ələsgər yaradıcılığı köksündə dinimizi və dilimizi, lirikanı və hikməti, tarixi və fəlsəfəni, adət və ənənələrimizi, təbiəti və gözəlliyi, elmi və ürfanı bəsləyərək yalnız özünəməxsus olan çoxşaxəli obrazlı, poetik təxəyyülüylə daim Həqiqət adlanan varlığın sirlərini bəşər övladına açmağa, göstərməyə səy etmişdir.

Yusif Nəğməkar "Ələsgər zirvəsi" epik poemasında Aşıq Ələsgər poeziyasının bu məna dəyərini bədii, obrazlı şəkildə ifadə etməyə nail olmuşdur:

Sözlər, səslər nizamlı,
Könül səsi – Ələsgər.
Həqiqəti mizanlı,
Haqq pərdəsi – Ələsgər.

Ruhuyla təzə-tərdi,
Kəlməsi kərəm zərdi,
Mənalar əsgərlərdi,
Sərkərdəsi Ələsgər.

"Şahi-Mərdan" hikmətindən "pünhan" dərs almış Dədə Ələsgər ömrünü haqqa, ədalətə sərf etmiş, məqaləmizin epiqrafında Qul Nəsiminin söylədiklərinə rəğmən, sanki gah "göy üzünə" qalxar, oradan "aləmi" seyr edərək "müəllim"indən dərs alar, Həqiqəti anlayar, sonra "yer üzünə" enər, övliyalığı, vergili şəxsiyyəti ilə, poetik Sözünün gücüylə onun sirlərini bəşər övladına çözələyər, onları heyran qoyardı.

Müəllifin dili zəngin, poetik və axıcıdır. Obrazlar dərinliklə işlənib, təsvirlər güclü poetik vasitələrlə zənginləşdirilib. Ələsgərin təbiət sevgisi, vətənpərvərliyi və Allah eşqi müəllifin poetik üslubu ilə harmonic şəkildə uzlaşır. Şeirlərdə istifadə edilən epitetlər, bənzətmələr, təşbehlər, metaforalar və klassik irfani mətnlərdən alınan istinadlar, sitatlar əsərə dərin mənəvi qatlar əlavə edir.

Bu epik-lirik-dramatik əsərdə hər bir məqam, nüans müəllif tərəfindən ölçülüb, biçilmişdir. Nümunə üçün, əsərdə müntəzəm olaraq ayrı-ayrı monoqrafiyalardan, elmi məqalələrdən gətirilmiş istinadlar, sitatlar müəllifin Dədə Ələsgər dühasına, fenomeninə poetik baxışını bu yaradıcılığın dərinliyini, alt qatlarını açmağa yönəlmiş elmi təhlillərlə müşayiəti Dədənin hərtərəfli, ucalığına məxsus olan real obrazını yaratmaq məqsədinə yönəlmişdir. Bu mənada, poeməni yalnız bir nəzm əsəri kimi deyil, eyni zamanda Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuş dərin tədqiqat işi kimi də qiymətləndirmək olar.

Aşıq Ələsgərin vətənə, təbiətə, insanlara olan sevgisi əsərin əsas mövzularından biri kimi təbiətin təsvirləri, insanın əxlaqi dəyərləri, mənəvi aləmi ilə əlaqəsi poemada çox təsirli şəkildə qələmə alınıb:

Mərdliyin, saflığın canlı timsalı,
Burda insanlar da qürur nişanlı,
Yerlər də saflığın canlı timsalı,
Yerlər də göylərtək nur kəhkəşanlı.

Dədə Ələsgər dühasıyla, fenomeniylə onun həyatı və yaradıcılığı vasitəsilə tanış olub, onun haqqında elmi, publisistik, poetik söz deyən hər bir yaradıcı insan bu sirli, sehrli, möcüzəli ümmanın dərinliklərinə tam baş vura bilmədiyindən, ona olan sevginin tükənməzliyindən bu yaradıcılığa dönə-dönə qayıtmaq məcburiyyətində qalır. Şair Yusif Nəğməkarın poemanın "Ən son ün"də, "Sonu sonsuz ün"ümün ifadəsində etdiyi etirafı da bu həqiqətin təsdiqi, sübutudur:

Tükənməyir qələmimin həvəsi,
Payızı yox hər yarpaqda xəzəlin...
Təngiməsin diləyimin nəfəsi,
Axırına çıxammıram əzəlin.

Ta Ələstdən "bəli"mizə büləndik,
Bələnmişəm ruhsal dolu sevgiyə.
Könül-könül, misra-misra ələndik,
Nöqtə qoymaq olmur ulu sevgiyə...

Zəngin milli ədəbiyyatımızın bütün dövrlərində Nizami, Xaqani, Nəsimi, Füzuli, Sabir və s. kimi uca zirvələri mövcuddur. Dağlar qoynunda həyata göz açmış, böyümüş, misilsiz poetik şedevrlər yaratmış Dədə Ələsgər dünyanın ən yüksək dağ zirvələrinə bənzər, saydığımız zirvələr içərisində öz dühasına layiq, bənzərsiz, əlçatmaz poeziya zirvəsi fəth etmişdir.

İlhamı nur mələk, pəri...
Qorqud, Xətai-Şəhpəri.
Nəsimilər bərabəri,
Füzuli təni, Ələsgər.

Məhz buna görə Yusif Nəğməkarın bu əsərini "Ələsgər zirvəsi" adlandırması diqqəti cəlb edir, təqdirə layiqdir, önəmlidir. Şairin yazdığı kimi, bu möhtəşəm Dağ Zirvəsinin yalnız ətəyinə qalxmaq, çatmaq mümkündür:

Ancaq yetmək çətindir,
Bir zirvə yetəyinə.
O, Ələsgər zirvəsi
– Qalx görüm ətəyinə!

Şair Yusif Nəğməkar poemasının "Son ün"ünü Aşıq Ələsgərin Bakıda ucaldılmış heykəlinə həsr edərək, onun Qərbə tərəf yönələn bu möhtəşəm abidəsinin bu günkü ictimai-siyasi durumda mədəni həyatımızın əlamətdar hadisəsi olmasını nəzərə alaraq, Dədənin ruhuyla bizləri Qərbi Azərbaycana, onun doğma yurdu Göyçəyə çağırır:

O, sirrimiz, ofsunumuz,
Avazında süslər bizi.
Saf kökümüz, ulusumuz,
Ulu yurda səslər bizi.






Şair Yusif Nəğməkarın "Ələsgər zirvəsi" kitabı bir çox nəzər nöqtəsindən – həm poetik, həm elmi, həm də mənəvi baxımdan çağdaş ədəbiyyatımıza, ələsgərşünaslığa töhfə olan, xüsusi əhəmiyyət kəsb edən dəyərli, yeni, sanballı bir poeziya nümunəsidir. Şair Aşıq Ələsgər həyatını və yaradıcılığını, onun zəngin çalarını öz oxucusuna poetik dillə təqdim etməklə, onu yeni poetik baxışla oxuyub təhlil edir və müasir dövrdə bu irsin aktuallığını ön plana çəkir.



Bu əsər Aşıq Ələsgər poeziyasını sevənlər, bu dühanın, poeziya fenomeninin sirlərinə maraq göstərənlər və ədəbiyyat tədqiqatçıları üçün əvəzsiz bir töhfə, ədəbi-bədii mənbədir. Əminəm, Aşıq Ələsgərin həyatı və yaradıcılığı haqqında geniş məlumatlar və zəngin təsvirlərlə dolu olan, həm milli, həm də universal səviyyədə poeziyanın gücünü göstərən bu əsər həyatını Dədə Ələsgər yaradıcılığına həsr edən alimlərimizin, eyni zamanda Ələsgər sevdalı geniş oxucu kütləsinin dərin marağına səbəb olacaq.

***Moskva.***